# ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 30 (1470) ❖ Cümə, 3 oktyabr 2025-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella oktyabrın 1-də Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak ediblər.**

ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və İtaliya Prezidenti Sercio Mattarellaya yeni tikilmiş tədris korpusları və onların ətrafında yaradılmış park barədə məlumat verib.

Sonra tədris korpusunda təşkil edilən Azərbaycan və İtaliya kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanışlıq olub.

Qeyd edək ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü 2020-ci ildə Prezident İlham Əliyev tərəfindən İtaliyaya dövlət səfəri zamanı irəli sürülüb. Layihəni həyata keçirmək üçün ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Turin Politexnik Universiteti, Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında 2022-ci ildə akademik əməkdaşlıq sazişləri imzalanıb. Bu əməkdaşlıq İtaliyada kiçik və orta sahibkarlığın, yaradıcı sahələrin, sənətkarlığın və texnoloji inkişafın dəstəklənməsi təcrübəsini təhsil və tədqiqat vasitəsilə Azərbaycana gətirir, iqtisadiyyatımızın strateji sahələri, xüsusilə də mühəndislik, kənd təsərrüfatı və qida sənayesi, memarlıq və dizayn üçün gələcək kadrları yetişdirmək məsələsində mühüm rol oynayır.

İtaliya-Azərbaycan Universiteti binalarının təməli 2022-ci ildə hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə Bakıda qoyulub. Universitetə tələbə qəbulu 2023-cü ildən magistr səviyyəsində həyata keçirilir. Hazırda burada tədris olunan 8 bakalavr və 2 magistr proqramında 538 tələbə bakalavr, 102-si isə magistr səviyyəsində təhsil alır. İxtisaslardan 3-ü ikili diplom proqramıdır. Tədris proqramları elektrik və elektronika mühəndisliyi, memarlıq, interyer və kommunikasiya dizaynı, şəhərsalma, kənd təsərrüfatı və qida texnologiyaları, heyvandarlıq və müxtəlif menecment ixtisaslarını əhatə edir. Bakalavr və magistr proqramlarından əlavə, peşəkarlar üçün mütəmadi ixtisasartırma və sertifikat proqramları da həyata keçirilir.

Tədris korpuslarında sinif otaqları ilə yanaşı, müasir texnologiyalara əsaslanan, İtaliyanın Bolonya Universiteti və Milan Politexnik Universiteti ilə birgə qurulmuş 6 tədqiqat və 7 tədris məqsədli laboratoriya da fəaliyyət göstərəcək. Burada memarlığa aid materiallardan ibarət kitabxana, şəhərsalma, landşaft və foto-video studiyaları, müxtəlif dizayn emalatxanaları yerləşir. Yeni binalarda qurulmuş tədris emalatxanaları isə dərslərin praktiki tədrisi üçün bir məkandır. Burada müxtəlif növ materiallarla işləmək üçün texnoloji və rəqəmsal imkanlar yaradılıb. Tədris emalatxanası tələbələr və tədqiqatçıların bir yerdə işlədiyi məkandır. Onların birgə əməyinin nəticəsi isə xüsusi Dizayn və yaradıcılıq mərkəzi vasitəsilə sənaye və biznes strukturlarına çatdırılacaq. Bir sözlə, bura tədris və tədqiqatın real iş dünyası ilə birləşdiyi mərkəzdir.

Tədris korpusunda yerləşən ”bazar meydanı” isə Azərbaycanın tarixi ”İpək Yolu”nun bir hissəsi olduğunu əks etdirir. Universitetin tələbələri və müəllimləri ildə bir dəfə burada bir araya gələrək öz layihələri ilə yarışacaq və onları biznes mühitinə təqdim edəcəklər. Bu sərgilər yerli və beynəlxalq səviyyədə universitet-sənaye-dövlət arasında üçtərəfli əməkdaşlığa xidmət göstərəcək.

Bu layihənin icrası ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın yüksək səviyyəsinin göstəricisi olmaqla səmimi münasibətlərimizdən xəbər verir. Bu, həmçinin İtaliya təcrübəsindən istifadə etməklə Azərbaycan təhsilinin inkişafına töhfədir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və İtaliya Prezidenti Sercio Mattarella tədris binalarında yaradılan şəraitlə tanış olduqdan sonra ölkəmizdə səfərdə olan İtaliya universitetlərinin rəhbərləri, İtaliya-Azərbaycan Universitetinin professorları və tələbələri ilə görüşüblər.

Görüşdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycanın və İtaliyanın rəsmilərini, universitetin professor-müəllim heyətini, tələbələri salamlayıb.

Beş il bundan əvvəl İtaliyaya rəsmi səfəri zamanı Prezident İlham Əliyevin təşəbbüslə çıxış edərək İtaliya-Azərbaycan Universitetinin yaradılması haqqında təklif irəli sürdüyünü bildirib: ”O zamandan işlər başladı və 2022-ci ildə artıq Roma şəhərində biz İtaliyanın beş universiteti ilə birlikdə müqavilələrə qol çəkdik və beləliklə, niyyətlər konkret işlərə keçdi. Ondan sonra, əlbəttə, cənab Prezident bizə böyük bir hədiyyə kimi yeni İtaliya-Azərbaycan Universitetinin Bakıda kampusunun yaradılması haqqında Sərəncam verdi. Bu gün görürsünüz, biz indi həmin universitetdəyik . Bu gün bizim 640 tələbəmiz var. Onlardan 112-si magistr, qalanı bakalavr tələbələridir. Hətta deyə bilərəm ki, bizim ilk qəbulumuz 2023-cü ildə olub və artıq onun məzunları bu il Luiss Universitetinin magistr proqramını başa vurublar”.

Hafiz Paşayev Prezident İlham Əliyev və Prezident Sercio Mattarellanın təhsilə verdiyi diqqəti və dəstəyi xüsusi qeyd edib. Universitet, müəllim və tələbələr adından hər iki Prezidentə təşəkkürünü bildirib.

Sonra çıxış edən Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin binalarının açılış gününün hər iki dövlətin əlaqələrinin tarixində çox əlamətdar bir gün olduğunu deyib: ”Romada Prezident Mattarella ilə görüşərkən ona bu haqda məlumat vermişdim və onu Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Şadam ki, cənab Prezident mənim dəvətimi qəbul edib Azərbaycana ikinci dəfə rəsmi səfərə gəlib. Biz səfər çərçivəsində bu gözəl təhsil ocağının açılışını birlikdə qeyd edirik. Əslində, Prezident Mattarellanın rəsmi səfər proqramına bu tədbirin salınması onu göstərir ki, həm İtaliya, həm də Azərbaycan bu sahədəki əməkdaşlığa çox böyük əhəmiyyət verir”.

Dövlətimizin başçısı burada oxuyan və oxuyacaq tələbələrin gələcəkdə Azərbaycanın inkişafına çox böyük dəstək verəcəklərinə əminliyini bildirib: ”Sirr deyil ki, hər bir ölkənin inkişafı onun elmi və təhsil potensialından qaynaqlanır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu ölkələri inkişaf etmiş ölkələr edən məhz biliklərdir, təhsildir, texnologiyalardır. Bugünkü dünyada texnoloji inkişaf hər bir ölkənin uğurunu müəyyən edir”.

Prezident İlham Əliyev bildirib ki, təbii resurslarla zəngin olan ölkələr kimi Azərbaycan, ilk növbədə, təbii resurslardan gələn gəlirləri insan kapitalına yönəltməyə çalışıb: ”Neft, qaz, təbii resurslar hələ o demək deyil ki, bu ölkələr uzunmüddətli dayanıqlı inkişafa malik olacaqlar. Bu inkişaf qısamüddətli ola bilər. Uzunmüddətli dayanıqlı inkişaf məhz biliyin, texnologiyanın, təhsilin səviyyəsinin üzərində qurulur. Ona görə biz Azərbaycanda bu sahəyə böyük diqqət yetirərək artıq uzun illər ərzində bir çox önəmli proqramlar icra etmişik”.

Daha sonra İtaliya Prezidenti Sercio Mattarella çıxışında İtaliya-Azərbaycan Universitetini ölkələr arasında dostluq və əməkdaşlığın rəmzi kimi dəyərləndirib. Yeni şəhərciyin funksionallığını və gözəlliyini yüksək qiymətləndirərək bu təşəbbüsün təhsil, elm və mədəni əlaqələri gücləndirdiyini vurğulayıb. Prezident Sercio Mattarella tələbə və müəllimlərin birgə fəaliyyətini gələcək nəsillər üçün dəyərli təcrübə və imkan mənbəyi adlandırıb.

”Gördüyünüz işlərə görə sizə sağ ol deyirik. İtaliya bu təşəbbüsdə Azərbaycanla birgə iştirak etməkdən fərəhlənir. Cənab Prezident, həqiqətən çox məmnunam ki, biz beynəlxalq səviyyədə bu cür əhəmiyyətli nümunə göstəririk, yəni, əməkdaşlığın dərinləşməsi və inkişafı, istedadlı gənclərimizin təhsili təmin edilir... Qlobal səviyyədə çox işlər görmüşük. Mədəniyyət, təhsil və tədqiqatların dərinləşməsi olmadan bu çağırışlar qarşısında dayanmaq mümkün olmayacaq. Bu amal İtaliya-Azərbaycan Universiteti tərəfindən dəyərləndirilir və onun üçün əməkdaşlıq aparılır”, - deyə Prezident Sercio Mattarella vurğulayıb.

Sonda Prezident Sercio Mattarella Prezident İlham Əliyevə dəvət və göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək əməkdaşlığın genişlənəcəyinə inamını ifadə edib.

# Vətən müharibəsində tarixi hünər: Zəfər diskursu

**Sentyabrın 26-da AMEA-da "Vətən müharibəsində tarixi hünər: Zəfər diskursu" mövzusunda konfrans keçirilib.**





Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli artıq beşinci ildir ki, 27 sentyabrın Azərbaycanda Anım Günü kimi qeyd edildiyini vurğulayıb. O qeyd edib ki, bu tarixi gün 44 günlük Vətən müharibəsində igidliklə döyüşərək ölkəmizin işğala məruz qalmış ərazilərinin azad edilməsi yolunda şəhid olmuş əsgər və zabitlərimizə dərin ehtiramın ifadəsidir.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Vətən müharibəsi son yüz ilin ən qısa və uğurlu qalibiyyətlə bitən müharibəsidir. Bu Zəfər həm respublika, həm də beynəlxalq miqyasda Azərbaycanın strateji mövqelərinin güclənməsinə, regional sabitliyin təmin olunmasına və həmrəyliyin qorunmasına xidmət edir.

AMEA rəhbəri qeyd edib ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev müdrik rəhbərliyi ilə rəşadətli ordumuzun və xalqımızın sarsılmaz birliyi nəticəsində doğma Qarabağımızı düşmən işğalından azad etməklə həm də Ulu Öndər Heydər Əliyevin arzusunu şərəflə yerinə yetirib.

Akademik İsa Həbibbəyli əlavə edib ki, bu müharibə hərb tarixində ən ədalətli müharibə kimi qəbul olunur və Vətən müharibəsində əldə olunan tarixi Zəfər beynəlxalq hüququn aliliyi, ərazi bütövlüyünün qorunması və ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin Vaşinqton səfərinə toxunaraq imzalanmış Birgə Bəyannamənin tarixi əhəmiyyətini və regional əməkdaşlıq üçün açdığı yeni perspektivləri xüsusi vurğulayan akademik İsa Həbibbəyli qeyd edib ki, Birgə Bəyannamə regionda sülhün və dayanıqlı sabitliyin təmin olunması istiqamətində mühüm addım kimi qiymətləndirilir. Sənəd ölkələr arasında qarşılıqlı etimadın möhkəmlənməsinə və danışıqlar prosesinin yeni mərhələyə qədəm qoymasına zəmin yaradır.

Konfrans məruzələrlə davam edib.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə "Prezident İlham Əliyevin Vətən müharibəsində tarixi Zəfəri: siyasi-ideoloji baxış və strateji hədəflər" mövzusunda məruzə edib. Alim Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərin siyasi və ideoloji aspektlərini təhlil edib. Bu uğurun Azərbaycanın strateji hədəflərinə necə xidmət etdiyini vurğulayıb. Zəfərin milli həmrəylik və dövlətçilik ideyalarının inkişafında oynadığı rolu diqqətə çatdırıb.

AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Günel Musayeva "Böyük Zəfərin start nöqtəsi - 27 sentyabr: tarix və müasirlik" mövzulu məruzəsində BMT qətnamələrinin tələblərinə Ermənistanın əməl etməkdən boyun qaçırmasının regional sabitliyə və sülh prosesinə yaratdığı mənfi təsirlərdən danışıb.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi tarix üzrə fəlsəfə doktoru Pərviz Qasımov institutun azad edilmiş ərazilərdə apardığı arxeoloji və antropoloji tədqiqatlara dair təqdimatla çıxış edib. O, bu ərazilərdə ilk dəfə genişmiqyaslı radiokarbon analizlərinin həyata keçirildiyini, abidələrin xronologiyasının dəqiqləşdirildiyini qeyd edərək, Üzərliktəpə və Ağdam İmarət Kompleksində aparılan tədqiqatların maddi-mədəniyyət nümunələrinin öyrənilməsində mühüm nəticələr əldə etməyə imkan yaratdığını deyib. Qeyd edib ki, Azıx və Tağlar mağaralarında beynəlxalq tədqiqatlar aparılıb və bu işlər regionun həmin dövr maddi-mədəniyyəti barədə əhəmiyyətli məlumatlar təqdim edib. Məruzədə həmçinin məhkəmə arxeologiyası istiqamətində görülən işlərdə respublikanın müvafiq orqanları ilə müştərək fəaliyyətin əhəmiyyəti vurğulanıb, bütün bu tədbirlərin azad edilmiş ərazilərin tarixi irsinin öyrənilməsi və qorunması sahəsində önəmli addımlar olduğu qeyd edilib.

Konfransda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Asif Rüstəmli "Tarixin və Zəfərin 44 anı" mövzusunda çıxış edərək Vətən müharibəsinin tarixi və mənəvi əhəmiyyətini, həmçinin bu Zəfərin Azərbaycan ədəbiyyatında və milli yaddaşda əks olunduğunu qeyd edib.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Məlahət Ağayeva isə "Azərbaycan teatrında Qarabağ mövzusu" məruzəsində teatr səhnəsində Qarabağ mövzusunun müxtəlif janrlarda və dövrlərdə necə əks olunduğunu, bu əsərlərin milli mədəniyyətin qorunmasında və ictimai şüurun formalaşmasında oynadığı rolu diqqətə çatdırıb.

Tədbirdə digər çıxış edənlər 27 sentyabr - Anım Gününün Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yerini və bu günün milli yaddaşda daim yaşadılmasının əhəmiyyətini qeyd ediblər.

## AMEA-nın kollektivi Zəfər parkında şəhidlərimizin xatirəsini yad edib

**Sentyabrın 27-də - Anım günü ilə əlaqədar AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların rəhbərləri və gənc alimlər Bakıdakı Zəfər Parkında oldular.**

Elmi ictimaiyyətin nümayəndələri Zəfər Parkındakı xatirə daşının önünə gül dəstələri qoyub, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla anıblar.



# Aşıq Ələsgərdən Üzeyir Hacıbəyliyə: Türk dünyasının mədəni kodları





**Sentyabrın 25-də AMEA-nın Əsas binasının Dairəvi konfrans zalında Azərbaycan Milli Elmlər Akademiyası, AMEA-nın Folklor İnstitutu, AR Mədəniyyət Nazirliyi, Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı "Aşıq Ələsgərdən Üzeyir Hacıbəyliyə: Türk dünyasının mədəni kodları" mövzusunda beynəlxalq elmi simpozium öz işinə başlayıb.**

Əvvəlcə simpozium iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və onun ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar. Həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin məzarını ziyarət ediblər.

Daha sonra konfrans iştirakçıları AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Məhmət Akif Ərsoy, Məhtimqulu Fəraqi, Çin və Pakistan mərkəzlərində, həmçinin Elektron zalda olub, onların fəaliyyətləri barədə məlumat alıblar.

Beynəlxalq simpoziumun açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, AR mədəniyyət nazirinin müavini Murad Hüseynov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti prof. Dr. Aktotı Raimkulova, Azərbaycan Milli Konservatoriyasının rəhbərliyi, AR Milli Məclisinin deputatları, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, əməkdaşları, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstandan alimlər və media nümayəndələri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq qeyd edib ki, dövlət başçısının 3 fevral 2025-ci il tarixli Sərəncamı ilə bu il ölkəmizdə və beynəlxalq miqyasda dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, tanınmış ictimai xadim, akademik Üzeyir Hacıbəylinin 140 illiyi qeyd olunur.

Akademik İsa Həbibbəyli bildirib ki, Üzeyir Hacıbəyli dünyanı heyrətə gətirən zəngin yaradıcılığında Azərbaycanın xalq musiqisindən istifadə etməklə, əslində xalq aşıq musiqisinin peşəkar musiqi ola bilmə baxışını meydana qoyub və nəticə etibarilə aşıq musiqisi peşəkar musiqimizin mənbəyi və böyük mərhələsidir. AMEA rəhbəri dahi Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqinin əsasları" adlı monumental əsərinin bunu isbat etdiyini söyləyib.

Üzeyir Hacıbəylinin böyük sənətimizin, mədəniyyətimizin, incəsənətimizin, ictimai fikrimizin və elmimizin görkəmli nümayəndəsi kimi dünya miqyasında qəbul edildiyini deyən akademik İsa Həbibbəyli onun 140 illik yubileyinin bu günlərdə özünün də iştirakı ilə UNESCO-da yüksək səviyyədə qeyd olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Üzeyir Hacıbəyliyə, Aşıq Ələsgərə yenidən qayıtmaqla bütün dünya xalq musiqimizin, aşıq sənətimizin nə qədər zəngin, bənzərsiz və orjinal, eləcə də həm milli, həm də bəşəri olduğunu çox aydın şəkildə gördü.

Dünya musiqi tarixində bir çox tanınmış bəstəkarlar olmasına baxmayaraq, Üzeyir Hacıbəylinin öz universal yaradıcılığı ilə onlardan fərqləndiyini və onunla müqayisə edilə biləcək şəxsin olmadığını deyən AMEA prezidenti qeyd edib ki, görkəmli xadimimiz Şərqdə ilk operanın yaradıcısı, eləcə də Azərbaycanda konservatoriyanın, simfonik orkestr və xor məktəbinin təsisçisi kimi bu səviyyədə musiqi sənətində dahi yaradıcı göstərmək çətindir.

"Biz fəxr edirik ki, Azərbaycan xalqının Üzeyir Hacıbəyli kimi böyük mütəfəkkiri, musiqiçi alimi, elm xadimi var. O, həm də Azərbaycan Milli Elmlər Akademiyasının ilk 15 təsisçisindən biridir və Akademiyanın bugünkü Memarlıq və İncəsənət İnstitutunun ilk direktoru olmuşdur", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

Aşıq Ələsgərin yaradıcılığına da diqqət çəkən AMEA prezidenti qeyd edib ki, görkəmli söz ustadı Azərbaycan aşıq sənətini yüksək səviyyədə inkişaf etdirib, tarixi Azərbaycan torpaqlarında - Qərbi Azərbaycanın Göyçə mahalında aşıq sənətini özünün zirvəsinə çatdırıb.

"Aşıq Ələsgər aşıq ədəbiyyatının nizamnaməsini yazmışdır və zəngin yaradıcılığı ilə onu Azərbaycan aşıq ədəbiyyatının Məhəmməd Füzulisi hesab edirəm. Aşıq Ələsgərin və Üzeyir Hacıbəylinin ortaq nöqtəsi hər birinin öz sənətinin zirvəsində dayanmasıdır. Həmçinin Aşıq Ələsgər tarixi torpaqlarımızda, Göyçə mahalında yazıb-yaratmış, Üzeyir Hacıbəylinin şah əsərlərindən olan "Koroğlu" operasının baş qəhrəmanı isə həm də tarixi Qərbi Azərbaycan torpaqlarımız uğrunda mübarizə aparmış, nəticə etibarilə görkəmli bəstəkarımız bununla bütövlüyümüzü əks etdirmişdir" - deyə akademik İsa Həbibbəyli qeyd edib.

Sonra çıxış edən AR mədəniyyət nazirinin müavini Murad Hüseynov Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş geniş tədbirlərin keçirildiyini, 2009-cu ildən başlamış Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının bu il 17-nin baş tutduğunu bildirib. Qeyd edib ki, həmçinin dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyi dünyanın müxtəlif ölkələrində qeyd olunur, beynəlxalq miqyasda konfranslar, seminarlar, simpoziumlar keçirilir.

Sonra çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti prof. Dr. Aktotı Raimkulova qeyd edib ki, dahi Üzeyir Hacıbəyli Şərq və Qərb musiqisini birləşdirməklə Azərbaycan və dünya musiqisinə yeni nəfəs gətirib, xalq yaradıcılığından istifadə etməklə milli kimliyi gücləndirib.

O, həmçinin rəhbərlik etdiyi Türk Mədəniyyəti və İrsi Fondunun tarixi, üzv ölkələr və fəaliyyət istiqamətləri, Türk dünyasında həyata keçirdiyi layihələr barədə iştirakçılara məlumat verib.

Daha sonra tədbir öz işini plenar məruzələrlə davam etdirib. Azərbaycan Milli Konservatoriyasının rektoru prof. Dr. Kamilə Dadaşzadə, Qırğızıstan Milli Elmlər Akademiyasının Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru akademik Abdıldacan Akmataliyev, Türkiyənin Egey Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutundan prof. Dr. Metin Ekici və AMEA-nın Folklor İnstitutunun direktoru f.e.d. Hikmət Quliyev plenar məruzələrlə çıxış ediblər.

Həmçinin AR Milli Məclisinin deputatı Hikmət Babaoğlu, Qazaxıstanın M.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun baş direktoru akademik Kenjexan Matjanov, Türkiyənin Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin rektoru prof. Dr. Erhan Özden və Özbəkistan Fənlər Akademiyası Ə.Nəvai adına Ədəbiyyat Muzeyinin direktoru prof. Dr. Jabbor Eshonqulov çıxış edərək türk xalqlarının musiqi mədəniyyətindən danışıblar.

Sonra bir sıra hədiyyə və sertifikatlar təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, simpozium işini 25-26 sentyabr tarixlərində Azərbaycan Milli Konservatoriyasında davam etdirib.

# Dünəndən bu günə Birinci Türkoloji Qurultay: ümumtürk humanitar elmi fikrinin 100 ili və perspektivləri

**Sentyabrın 30-da AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının və Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun tərkibinə daxil olan Türk Dil Qurumunun birgə təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş ”Dünəndən bu günə Birinci Türkoloji Qurultay: ümumtürk humanitar elmi fikrinin 100 ili və perspektivləri” mövzusunda elmi konfrans keçirilib.**





Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Türk Dil Qurumunun rəhbəri professor Osman Mert, AMEA-nın Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların direktorları, gənc alimləri, türk xalqları ilə bağlı tədqiqat aparan alimlər və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları AMEA-da Türk dünyasına dair aparılan tədqiqatları əks etdirən nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 1926-cı ilin 26 fevral - 6 mart tarixlərində Bakı şəhərində, hazırda konfransın keçirildiyi AMEA-nın Rəyasət Heyətinin Böyük akt zalında baş tutduğunu bildirib. Birinci Türkoloji Qurultayın türk xalqlarının milli oyanış tarixində və özünüdərkində mühüm rol oynadığını deyən akademik İsa Həbibbəyli Qurultayda türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, toponimikası, etnoqrafiyası, incəsənəti və s. ilə bağlı qərarların qəbul edildiyini, nəticədə həmin tədbirin iştirakçılarının amansız sovet rəhbərliyinin hədəfinə tuş gələrək bir qisminin sürgünə göndərildiyi, bəzilərinin isə güllələndiyini söyləyib.

Bundan sonra SSRİ rəhbərliyinin türk xalqlarının birlik və həmrəyliyindən, milli oyanışından qorxaraq türkologiyanı məqsədyönlü şəkildə yalnız dilçilik hadisəsi kimi qələmə verdiyini deyən akademik İsa Həbibbəyli sovet dövründə Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının, eləcə də AMEA-nın Dilçilik və Şərqşünaslıq institutlarının sadəcə türk dillərini öyrəndiyini vurğulayıb.

Ümumilikdə Birinci Türkoloji Qurultayın ideyalarının bütün qadağalara baxmayaraq unutdurula bilmədiyini deyən akademik İsa Həbibbəyli Qurultayın milli düşüncənin, ümumtürk həmrəyliyinin təməllərini atdığını diqqətə çatdırıb. Qurultayın 100 il öncə təqdim etdiyi ideyaların bu gün Türk Dövlətləri Təşkilatının timsalında gerçəkləşməkdə olduğunu deyən akademik İsa Həbibbəyli təşkilatın başlıca hədəfləri sırasında türk xalqlarının birliyi və həmrəyliyinin dayandığını söyləyib. Həmçinin qeyd edib ki, Qurultayın ortaq əlifbaya keçidlə bağlı ideyaları 2024-cü ildə Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən yaradılan Türk Dünyası Ortaq Əlifba Komissiyasının iclasında qəbul olunub.

Prezident İlham Əliyevin Türk dünyasını bizim ailəmiz adlandırdığını, türk xalqlarına verdiyi ən yüksək dəyəri ifadə etdiyini bildirən akademik İsa Həbibbəyli bu gün Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkə kimi Türk dünyasında qərarların qəbulunda, birliyin, həmrəyliyin möhkəmlənməsində mühüm rol oynadığını vurğulayıb.

Dövlət başçısının prioritet elan etdiyi siyasətə uyğun olaraq AMEA-da müvafiq addımların atıldığını deyən akademik İsa Həbibbəyli Akademiyanın bir çox müəssisələrində Türk dünyasının tarixini, ədəbiyyatını, folklorunu, dilini, musiqisini, arxeologiyasını, fəlsəfəsini öyrənən şöbələrin fəaliyyət göstərdiyini, Türk dünyasının akademik elmi və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələrinin qurulduğunu və genişləndirilməkdə olduğunu söyləyib. Bildirib ki, atılan bu addımlar türk xalqlarının elmi-mədəni inteqrasiyası baxımından olduqca mühüm rol oynayır.

Birinci Türkoloji Qurultayın akademik Nizami Cəfərov, professor Mahirə Hüseynova kimi tədqiqatçılarımız tərəfindən sanballı tədqiqata cəlb olunduğunu deyən akademik İsa Həbibbəyli, həmçinin bu istiqamətdə dissertasiyaların və monoqrafiyaların da yazılmasının vacibliyinə toxunub.

Akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin təntənəli keçirilməsi məqsədilə AMEA-nın Rəyasət Heyəti tərəfindən qərar qəbul olunduğunu, bugünkü konfransla Qurultayın yubiley tədbirlərinə başlanıldığını deyib. Bildirib ki, ölkəmizdə türk xalqları ilə bağlı aparılan tədqiqatlar gələcəkdə AMEA-da Türkologiya İnstitutunun yaradılması zərurətini meydana qoyur  və zaman buna doğru gedir.

Akademik İsa Həbibbəyli konfransda sanballı məruzələrin dinləniləcəyini bildirib və tədbirin Türk dünyasında türkologiyaya dair tədqiqatların genişlənməsinə öz töhfəsini verəcəyini söyləyib.

Açılış nitqindən sonra Birinci Türkoloji Qurultayın iştirakçılarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Birinci Türkoloji Qurultaydan bəhs edən videoçarx nümayiş olunub.

Daha sonra Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti professor Aktotı Raimkulovanın təbrik məktubu səsləndirilib.

Tədbirdə ”Türklərin Birinci Türkoloji Qurultayı və ya Birinci Türkoloji Qurultayda türklər” mövzusunda çıxış edən Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov bildirib ki, Qurultay bütün çalarları ilə səmimi hadisədir və psixoloji, sosial məzmununa görə heç kəsdə şübhə doğurmur. Akademik Nizami Cəfərov vurğulayıb ki, Qurultayda müzakirə edilən məsələlər türk xalqlarının 100 il ərzində səsləndirdiyi fikirləri ifadə edirdi və zamanla İsmayıl bəy Qaspıralı, Vasili Radlov və başqaları tərəfindən dilə gətirilmişdi.  O, Qurultayın elmi rəhbərinin görkəmli türkoloq alimimiz Bəkir Çobanzadə olduğunu, Qurultay zamanı yaranmış bütün sualların onunla müzakirə edildiyini bildirib. Həmçinin diqqətə çatdırıb ki, Qurultay türk xalqlarının ideallarının nəticəsi olmuşdur.

Sonra tədbirin təşkilatçılarından olan Türk Dil Qurumunun prezidenti professor Osman Mert ”1926-cı il Bakı Birinci Türkoloji Qurultayından günümüzə Türk dünyasında ortaq əlifba məsələsi” mövzusunda çıxış edib. Belə bir tədbirin təşkilinə görə, AMEA ilə əməkdaşlıqdan məmnunluğunu dilə gətirən Osman Mert Birinci Türkoloji Qurultayın türk xalqlarının tarixində onları bir araya gətirmək məqsədi daşıyan önəmli hadisə olduğunu bildirib. Qeyd edib ki, bu Qurultay Türk dünyası tarixinin dönüş nöqtəsidir, onun ideyaları Türk dünyasının ortaq yaddaşı, dili və mədəniyyətinin xatırlanması baxımından yaşadılmalı və gələcək nəsillərə çatdırılmalıdır.

Xalq şairi Sabir Rüstəmxanlı isə ”Birinci Türkoloji Qurultay haqqında söz” mövzusunda məruzəsində Azərbaycan Milli Elmlər Akademiyasının hər zaman xalqımızın elmi düşüncəsinin mərkəzi olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan alimləri hələ sovet dövründə türkologiyanın yaşadılmasına çalışmışdır və ”Türkologiya” jurnalının uzun illərdir fəaliyyət göstərməsi bunun isbatıdır. Birinci Türkoloji Qurultayın türk xalqlarının milli kimliyinin dərkində mühüm rol oynadığını deyən Sabir Rüstəmxanlı zaman-zaman Qurultayın ideyalarının məqsədli şəkildə siyasiləşdirildiyini, əsas hədəfindən yayındırılmağa çalışıldığını vurğulayıb.

Konfransda, həmçinin AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli ”Birinci Türkoloji Qurultay sənədlərdə” və Azərbaycan Dillər Universitetinin məsləhətçi professoru Adil Babayev ”Birinci Türkoloji Qurultay və Türk dünyası” mövzusunda çıxış edərək Birinci Türkoloji Qurultayla bağlı apardıqları tədqiqatlar barədə məlumat veriblər.

Bundan əlavə, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri filologiya elmləri doktoru, professor İlhami Cəfərsoy çıxış edərək Birinci Türkoloji Qurultayın türk xalqlarının ictimai fikrində və mədəni inkişafındakı roluna toxunublar.

Sonda yekun sözü ilə çıxış edən akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə AMEA-da bir sıra kitab və monoqrafiyaların nəşrinin, humanitar və ictimai elm sahələri əhatə edən elmi-tədqiqat müəssisələrində silsilə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

# "Çingiz Aytmatov və Azərbaycan" cildinin sözlüyü ilə bağlı növbəti müzakirə

**Sentyabrın 26-da AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Qırğızıstan MEA-nın Çingiz Aytmatov adına Ədəbiyyat İnstitutunun direktoru akademik Abdıldajan Akmataliyevlə görüşüb.**



Görüş zamanı AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Qırğızıstan MEA-nın Çingiz Aytmatov adına Ədəbiyyat İnstitutunun birgə layihəsi olan ”Çingiz Aytmatov Ensiklopediyası”nın ”Çingiz Aytmatov və Azərbaycan” cildi ilə bağlı müzakirələr aparılıb.

Görüşdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, Çingiz Aytmatovun şəxsiyyəti, yaradıcılığı hər zaman ölkəmizdə diqqət mərkəzində olub və Azərbaycan dünyada Aytmatovşünaslığın əsas mərkəzlərindən biri kimi qəbul edilir.

Akademik İsa Həbibbəyli qonağa Ədəbiyyat İnstitutunun apardığı bir sıra beynəlxalq layihələr - ”Nizami Gəncəvi və Şota Rustaveli, ”Şəki və Qavrilov lətifələri” və digərləri barədə məlumat verib, bunlar sırasında qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun Azərbaycan-qırğız ədəbi-mədəni əlaqələrinin inkişafına verdiyi layiqli töhfələr nəzərə alınaraq hazırlanan ”Çingiz Aytmatov və Azərbaycan” nəşrinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Akademik İsa Həbibbəyli cari il Qırğızıstana səfəri çərçivəsində ensiklopediyanın ”Çingiz Aytmatov və Azərbaycan” cildinin sözlüyü ilə bağlı bir sıra mühüm müzakirələrin aparıldığını, bu gün isə akademik Abdıldajan Akmataliyevin ölkəmizdə olmasından irəli gələrək növbəti müzakirələrin keçiriləcəyini söyləyib. AMEA rəhbəri cilddə yer alacaq oçerklərin sözlüyünün və müəlliflərinin müəyyənləşdirildiyini, işi sürətləndirmək məqsədilə əlavə müəlliflərin də cəlb olunacağını diqqətə çatdırıb. Nəşrin çapının 2026-cı il üçün nəzərdə tutulduğunu deyən akademik İsa Həbibbəyli AMEA-nın bu addımının Türk dünyasının Akademiyalarına ilham verəcəyini, ensiklopediyanın Türkiyə, Qazaxıstan, Özbəkistan cildlərinin hazırlanması üçün geniş yol açacağını söyləyib.

Bu günlərdə özünün də iştirakı ilə UNESCO səviyyəsində Çingiz Aytmatova həsr olunmuş tədbirin keçirildiyini bildirən AMEA rəhbəri həmin yığıncaqda qəbul edilmiş qərarla 2028-ci ildə ədibin 100 illik yubileyinin beynəlxalq miqyasda qeyd olunacağını diqqətə çatdırıb. Bildirib ki, bundan irəli gələrək ”Çingiz Aytmatov və Azərbaycan” cildinin beynəlxalq dillərə tərcüməsi də olduqca vacib məsələlərdəndir.

Akademik İsa Həbibbəyli Çingiz Aytmatovun məktublarının tədqiqata cəlb olunmadığını, Ədəbiyyat İnstitutunda tezliklə ”Çingiz Aytmatov və məktubları” layihəsinin icrasına başlanılacağını söyləyib.

Sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli çıxışında qeyd edib ki, ensiklopediyanın cildinin hazırlanması ilə bağlı materiallar toplanılıb, sözlük hazırlanıb, Azərbaycandan olan müəlliflər müəyyən olunub, bir çox qurumlarla əlaqələr qurulub. İnstitutun gənc tədqiqatçılarından Orxan İsayev, Nəzrin Əliyeva, Pərvanə Kərimova və başqaları müəlliflər sırasındadır. Həmçinin Mirzə Fətəli Axundzadə adına Milli Kitabxana, Türk Mədəniyyəti və İrsi Fondundan materialların əldə edildiyini, nəzərdə tutulan yüz on məqalənin əksəriyyətinin ilkin variantının yazıldığını deyib.

Qırğızıstan MEA Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru akademik Abdıldacan Akmataliyev çıxışında bildirib ki, Azərbaycan Çingiz Aytmatovla bağlı görülən işlərin öncüllərindəndir. O, ədibin 100 illiyinə hazırlıqla bağlı ”Çingiz Aytmatov və Azərbaycan” cildinin hazırlanması ilə yanaşı, digər işlərin də görüldüyünü diqqətə çatdırıb. Yeni nəşrdə Çingiz Aytmatovun əsərlərindəki ”Manas”, ”Koroğlu” və ”Dədə Qorqud” dastanları ilə bağlı nüansların da işlənilməsinin zəruriliyini söyləyib. Bundan əlavə, Azərbaycanda Çingiz Aytmatova həsr olunmuş elmi əsər və monoqrafiyaların da oçerklərinin hazırlanmasını təklif edib.

”Ədəbiyyat qəzeti”nin baş redaktorunun müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Adil Cəmil Qırğızıstan və qırğız ədəbiyyatı ilə bağlılığının 20 ildən çox olduğunu bildirib. Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetində ”Manas” eposu və türk dastançılıq ənənəsi” mövzusunda dissertasiya müdafiə etdiyini, qırğız ədəbiyyatı ilə bağlı bir sıra əsərlər yazdığını söyləyib. 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ”Manas” dastanının 1000 illik yubileyində iştirak edərkən Bişkekdə Çingiz Aymatovla görüşdüyünü qeyd edib. Ədibin oğlu Əsgər Aytmatovla şəxsi əlaqələrindən danışan natiq onun vasitəsilə ensiklopediyanın cildi üçün materiallar toplayacağını da diqqətə çatdırıb.

Sonda yeni təkliflərin ”Çingiz Aytmatov və Azərbaycan” cildində yer alması ilə bağlı razılıq əldə olunub, hazırlıq işlərinin 2026-cı ilin martında yekunlaşması qərara alınıb.

# AMEA Rəyasət Heyətinin iclası









**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Əvvəlcə akademik İsa Həbibbəyli AMEA-nın elmi müəssisə və təşkilatlarında çalışan bir sıra şəxslərə "Əmək veteranı" vəsiqələrini təqdim edib.

İclasda müzakirəyə çıxarılan ilk məsələ Prezident İlham Əliyevin "Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında" 17 sentyabr 2025-ci il tarixli Sərəncamının icrasından irəli gələn məsələlər haqqında olub.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Sərəncamda Azərbaycan Milli Elmlər Akademiyasına AR Mədəniyyət Nazirliyi və AR Elm və Təhsil Nazirliyi ilə birlikdə görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin 150 illiyinə dair Tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

2025-ci il ərzində Prezident İlham Əliyev tərəfindən Akademiyanın 80 illik yubileyi, eləcə də bir sıra görkəmli elm xadimlərinin yubileyləri ilə bağlı müvafiq sərəncamların imzalandığını və tapşırıqların verildiyini deyən akademik İsa Həbibbəyli göstərilən diqqət və qayğıya görə AMEA-nın kollektivi adından dövlət başçısına minnətdarlığını bildirib.

AMEA rəhbəri vurğulayıb ki, 2025-ci ildə Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk Baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150 illiyi tamam olur. Akademik İsa Həbibbəyli qeyd edib ki, Fətəli xan Xoyski parlaq zəkası, geniş dünyagörüşü və siyasi təcrübəsi ilə XX əsrin əvvəllərində Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda cəsarətlə mübarizə aparmışdır.

Akademik İsa Həbibbəyli dövlət başçısının Sərəncamında da qeyd olunduğu kimi, Fətəli xan Xoyskinin Azərbaycan Xalq Cümhuriyyətində demokratik dövlət idarəçiliyinin təşkili, iqtisadiyyatın, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafı, ordu quruculuğu, eləcə də Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr verdiyini bildirib.

AMEA rəhbəri diqqətə çatdırıb ki, bu Sərəncam Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatının parlaq nümayəndələrindən biri Fətəli xan Xoyskinin həyat və yaradıcılığının müstəqilliyimizin verdiyi geniş imkanlar işığında, elmi prinsiplər əsasında tədqiq və təbliğ olunması zərurətini ortaya qoyur.

Bu günə kimi Fətəli xan Xoyskiyə həsr olunmuş yalnız silsilə məqalələrin işıq üzü gördüyünü deyən akademik İsa Həbibbəyli bu nəhəng şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən sanballı nəşrin olmadığını, dövlət başçısının Sərəncamından irəli gələrək, AMEA-nın Tarix və Etnologiya İnstitutu tərəfindən ilk dəfə olaraq fundamental monoqrafiyanın hazırlandığını söyləyib.

Sərəncamın icrasını təmin etmək məqsədilə, Rəyasət Heyəti tərəfindən Tədbirlər planının hazırlanmasına dair müvafiq tapşırıq verilib.

Sonra AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Parisdə UNESCO-nun mənzil qərargahında "Çingiz Aytmatov və UNESCO: Dünyanı birləşdirən ortaq irs" adlı beynəlxalq konfransda iştirakının yekunları haqqında məlumat verib.

Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm prioritetlərindən birini Türk xalqları ilə əməkdaşlığın dərinləşdirilməsi və bu əməkdaşlığın elmi, mədəni və tarixi əsaslarla möhkəmləndirilməsidir. Diqqətə çatdırıb ki, dövlət siyasətinə uyğun olaraq, son illər AMEA-da türk xalqlarının tarixinin və mədəniyyətinin elmi kontekstdə öyrənilməsi istiqamətində mühüm addımlar atılır. Eyni zamanda, türk xalqlarının ortaq mədəniyyət və dəyərlərinin elmi prinsiplər əsasında müzakirə olunduğu platformalarda iştirak da AMEA-nın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Akademik İsa Həbibbəyli bundan irəli gələrək, 19 sentyabr 2025-ci il tarixində Parisdə UNESCO-nun mənzil qərargahında keçirilən "Çingiz Aytmatov və UNESCO: Dünyanı Birləşdirən ortaq İrs" adlı beynəlxalq konfransda iştirak etdiyini, tədbirin Qırğızıstanın UNESCO-da Daimi Nümayəndəliyinin təşəbbüsü, TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondunun və Ankarada yerləşən Çingiz Aytmatov İnstitutunun birgə əməkdaşlığı ilə baş tutduğunu söyləyib.

Konfransda TÜRKSOY-un Baş katibi Sultan Raevin, UNESCO Baş direktorunun müavini Ernesto Ottonenin, Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayevin və yazıçının oğlu Eldar Aytmatovun çıxış etdiyini, həmçinin 2024-cü ildə Bişkek şəhərinə Prezident İlham Əliyevin səfərinə dair videoçarxın təqdim olunduğunu diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli konfransda "Çingiz Aytmatov fenomeni və Azərbaycan faktoru" mövzusunda çıxış etməsi barədə Rəyasət Heyətinin üzvlərinə məlumat verib, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Çingiz Aytmatovun xidmətlərinə verdiyi yüksək dəyərin Azərbaycan xalqının ona göstərdiyi sarsılmaz ehtiramın bariz nümunəsi olduğunu vurğulayıb.

Rəyasət Heyəti tərəfindən qeyd olunanları nəzərə alaraq, qardaş türk dövlətlərinin elmi qurumları ilə əməkdaşlığın daha da genişləndirilməsi və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi qərara alınıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, həmçinin UNESCO yanında Azərbaycanın Daimi Nümayəndəliyinin təşəbbüsü ilə keçirilən akademik Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş tədbirdə iştirakının yekunları haqqında da məlumat verib. Akademik İsa Həbibbəyli bildirib ki, 19 sentyabr 2025-ci il tarixində Paris şəhərində UNESCO-nun mənzil-qərargahında dahi bəstəkarımız Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyinin təşəbbüsü ilə təşkil olunmuş tədbirdə müxtəlif ölkələrin səfirləri və digər şəxslər iştirak ediblər.

Konfrans zamanı Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış edərək bildirib ki, Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi bəstəkarın həyat və yaradıcılığına ehtiramı nümayiş etdirir. Bu, eyni zamanda musiqinin birləşdirici gücünü, mədəniyyətlər arasında dialoqun qurulmasına və ümumbəşəri dəyərlərə verilən qiyməti göstərir.

Akademik İsa Həbibbəyli isə bildirib ki, Üzeyir Hacıbəylinin əsərləri Azərbaycan sərhədlərini aşaraq, dünya səhnələrində uğurla nümayiş olunmuş və xalqlar arasında mədəni körpüyə çevrilmişdir. Akademik İsa Həbibbəyli məruzəsində bildirib ki, UNESCO kimi beynəlxalq mədəniyyət platformasında Üzeyir Hacıbəylinin 140 illik yubileyinin keçirilməsi onun irsinin yalnız Azərbaycan üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyət daşıdığını sübut edir.

Akademik İsa Həbibbəyli, o cümlədən Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayevə akademik Zemfira Səfərovanın bu yaxınlarda AMEA-nın "Elm" nəşriyyatında ingilis dilində nəşr olunmuş "Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq karyerası" kitabını hədiyyə etdiyini də söyləyib.

Qeyd olunanları nəzərə alaraq, Rəyasət Heyəti tərəfindən akademik Üzeyir Hacıbəylinin elmi, bədii irsinin, ictimai-fəlsəfi fikir tariximizdəki yerinin, Azərbaycan və dünya musiqi sənətinin inkişafındakı rolunun beynəlxalq səviyyədə təbliği istiqamətindəki işlərin daha da genişləndirilməsi tapşırılıb.

İclasda müzakirə edilən növbəti məsələ AMEA-nın "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunmuş XI Bakı Beynəlxalq Kitab Sərgisində iştirakı haqqında olub.

Akademik İsa Həbibbəyli bildirib ki, AR Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 1-7 oktyabr 2025-ci il tarixində Bakı Ekspo Mərkəzində XI Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək. Sərgi bu il "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunmuşdur və müasir dövrün elmi və mədəni müstəvisində texnologiyanın insan həyatına təsiri ilə bağlı geniş müzakirələrə imkan yaradacaq. Sərgidə 18 ölkədən 41 xarici təşkilat, 100-dən artıq yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edəcək.

AMEA rəhbəri "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusunun aktuallığının müasir dövrdə sürətlə inkişaf edən texnologiyalar fonunda insanın cəmiyyətdəki mövqeyinin və funksional rolunun dəyişməsi, süni intellektin və rəqəmsal texnologiyaların insan fəaliyyəti üzərində yaratdığı təsirlərin elmi və fəlsəfi müstəvidə dərindən təhlil olunması zərurətindən qaynaqlandığını deyib. Süni intellekt istiqamətində AMEA-nın son illərdə dövlət siyasətinə müvafiq olaraq həyata keçirdiyi islahatlardan danışıb, süni intellekt texnologiyalarının humanitar və ictimai elmlər sahəsində tətbiqinə yönəlmiş kompleks tədbirləri xüsusi vurğulayıb.

AMEA-nın "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunmuş XI Bakı Beynəlxalq Kitab Sərgisində yüksək səviyyədə təmsil olunmasının önəminə toxunan akademik İsa Həbibbəyli qeyd edib ki, bu, dövlətin elmi-texnoloji inkişaf strategiyasını dəstəkləməklə yanaşı, AMEA-nın modernləşən elmi prioritetlərinin nümayiş olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Akademik İsa Həbibbəyli sərgidə AMEA-nın bütün elmi müəssisə və təşkilatlarının yüksək səviyyədə iştirakı və ən son nailiyyətləri əks etdirən nəşrlərin ictimaiyyətə təqdim edilməsi ilə bağlı tapşırıqlarını verib.

Sonra AMEA-nın "Elm" nəşriyyatının direktoru filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov sərgiyə hazırlıqla bağlı iclas iştirakçılarına məlumat verib. Qeyd edib ki, sərgidə AMEA-nın nəşrləri iki istiqamətdə oktyabrın 1-də "Akademiyada: biblioqrafik nəşrlər və serialı akademik nəşrlər" və oktyabrın 4-də "Akademiyanın Zəngəzurnaməsi: folklor toplamalarından akademik tədqiqatlaradək" mövzularında təqdim olunacaq. S.Qəhrəmanov artıq hazırlıq işlərinin yekunlaşdığını və AMEA-nın yüksək səviyyədə iştirakı ilə bağlı bütün zəruri tədbirlərin görüldüyünü bildirib.

Qeyd olunanları nəzərə alaraq, sərgidə AMEA-nın iştirakını təmin etmək, kitab sərgisi çərçivəsində zəruri tədbirləri və müzakirələri təşkil etmək məqsədilə müvafiq Komissiya yaradılıb.

İclasda müzakirə edilən növbəti məsələ AMEA-nın elmi bölmə və mərkəzlərinin AMEA-nın 80 illik yubileyinə həsr olunmuş elmi nailiyyətlər sərgisinin təşkili haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə AMEA-nın və AR Elm və Təhsil Nazirliyinin birgə Tədbirlər planı təsdiq edilib.

Tədbirlər planında AMEA-nın 80 illik yubileyi ilə bağlı tədbirlərin, o cümlədən simpozium, konfrans, seminar, dəyirmi masalarla yanaşı kitab sərgilərinin təşkil edilməsi nəzərdə tutulub. Akademik İsa Həbibbəyli qeyd edib ki, bu məqsədlə AMEA-nın 80 illik yubileyinə həsr olunmuş elmi nailiyyətlər sərgisinin təşkili zərurəti yaranıb.

Sərginin üç istiqamətdə ictimaiyyətə təqdim olunacağını deyən AMEA rəhbəri ilk növbədə elmi müəssisə və təşkilatlarda işıq üzü görmüş nəşrlərin, daha sonra elmi-texniki nailiyyətlərin, eləcə də Akademiya əməkdaşlarının bir sıra rəsm əsərlərinin sərgiləcəyini diqqətə çatdırıb.

Qeyd olunanları nəzərə alaraq, AMEA-nın elmi bölmə və mərkəzlərinə elmi nailiyyətlər sərgisinə hazırlıqla bağlı tapşırıq verilib.

Sonra AMEA-nın Folklor İnstitutunun direktoru f.e.d. Hikmət Quliyev 25-26 sentyabr tarixlərində Azərbaycan Milli Elmlər Akademiyası, AMEA-nın Folklor İnstitutu, AR Mədəniyyət Nazirliyi, Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə keçirilmiş "Aşıq Ələsgərdən Üzeyir Hacıbəyliyə: Türk dünyasının mədəni kodları" mövzusunda beynəlxalq elmi simpozium barədə məlumat verib.

Bildirib ki, simpoziumun açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, AR mədəniyyət nazirinin müavini Murad Hüseynov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti prof. Dr. Aktotı Raimkulova, Azərbaycan Milli Konservatoriyasının rəhbərliyi, AR Milli Məclisinin deputatları, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları, əməkdaşları, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstandan alimlər iştirak edib və çıxış ediblər.

Həmçinin Azərbaycan Milli Konservatoriyasının rektoru prof. Dr. Kamilə Dadaşzadə, Qırğızıstan Milli Elmlər Akademiyasının Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru akademik Abdıldacan Akmataliyev, Türkiyənin Egey Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutundan prof. Dr. Metin Ekici plenar məruzələrlə çıxış ediblər.

H.Quliyev tədbirin yüksək səviyyədə təşkil olunduğunu, türk xalqlarının musiqi mədəniyyətinə dair sanballı müzakirələrin aparıldığını bildirib.

Qeyd olunanları nəzərə alaraq, Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul olunub.

İclasda, həmçinin akademik Əkpər Feyzullayevin 80, AMEA-nın müxbir üzvü Telman Ağayevin 90, AMEA-nın müxbir üzvü Kamil Ayda-zadənin 75, AMEA-nın müxbir üzvü İlham Məmmədovun 70, AMEA-nın müxbir üzvü Pənah Muradovun 65, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun isə 60 illik yubileyi haqqında qərarlar qəbul olunub.

İclasda qeyd olunan məsələlər ətrafında akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, akademik Gövhər Baxşəliyeva, akademik Arif Həşimov, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# XI Bakı Beynəlxalq Kitab Sərgisi




**Oktyabrın 1-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində XI Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimi keçirilib.**

Tədbirdə millət vəkilləri, hökumət rəsmiləri, tanınmış mədəniyyət, elm, ədəbiyyat xadimləri, xarici qonaqlar, ali və orta təhsil müəssisələrinin təmsilçiləri, nəşriyyatların direktorları, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Açılış mərasimində Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu çıxış edərək kitab sərgisi ənənəvi layihəsinin kitabsevərlər üçün böyük bayram olduğunu bildirib. O, XI Bakı Beynəlxalq Kitab Sərgisinin Azərbaycanın mədəni potensialının inkişafı, elmi əlaqələrin möhkəmlənməsi, qarşılıqlı bilik və təcrübə mübadiləsinin təşviqi baxımından əhəmiyyətini qeyd edib.

Sonra çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli beynəlxalq kitab sərgisini Azərbaycan üçün böyük elmi-mədəni hadisə kimi dəyərləndirib. O, belə sərgilərin ölkədə çap, dialoq və oxu mədəniyyətinin inkişafına, mütaliə vərdişlərinin güclənməsinə, elmi və ədəbi fikir mübadiləsinin aparılmasına xidmət etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli bildirib ki, yüksək təşkilatçılıqla baş tutan XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində elm adamlarının kitablarının təqdimatının keçirilməsi, yeni kitabların ictimaiyyətə təqdim olunması, elmi konfransların təşkili bu mədəniyyət hadisəsinə elmi məzmun gətirməklə yanaşı, onun miqyasını və intellektual səviyyəsini daha da artıracaq.



AMEA rəhbəri vurğulayıb ki, builki sərgidə Nizami Gəncəvi, Üzeyir Hacıbəyli və Bəxtiyar Vahabzadə kimi görkəmli şəxsiyyətlərimizin adı ilə bağlı ayrı-ayrı təqdimat zonalarının yaradılması sərgidə iştirak edən çoxsaylı ölkə nümayəndələri vasitəsilə Azərbaycanın dahi yazıçı və sənətkarlarının dünya miqyasında tanıdılmasına töhfə verəcək. Eyni zamanda, XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində AMEA-nın görkəmli alimlərinə və təmsilçilərinə həsr olunmuş çoxsaylı kitablar, Akademiyanın 80 illik yubileyi ilə bağlı bir sıra yeni nəşrlər nümayiş etdiriləcək.

Daha sonra Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva qeyd edib ki, bu kimi beynəlxalq sərgilər yalnız mədəniyyətin deyil, həm də maarifləndirmənin, xüsusən hüquqi biliklərin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirdə, həmçinin Azərbaycan Yazıçılar Birliyinin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev, mədəniyyət nazirinin müavini Fərid Cəfərov və "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin sədri Şəmil Sadiq çıxış edərək sərginin yazıçılarla oxucular arasında körpü rolunu oynadığını, həmçinin yeni nəslin ədəbiyyata marağının artırılmasına və milli ədəbi irsin təbliğinə töhfə verdiyini bildiriblər.

Qeyd edək ki, XI Bakı Beynəlxalq Kitab Sərgisi bu il "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunub. Sərgidə 23 ölkədən 68 xarici təşkilat, 100-dən artıq yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə məşğul olan müəssisə iştirak edir.

Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları və kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək.

Xatırladaq ki, XI Bakı Beynəlxalq Kitab Sərgisində Azərbaycan Milli Elmlər Akademiyası öz stendi və nəşrləri ilə təmsil olunur.

# Akademiyada biblioqrafik nəşrlər və seriyalı akademik tədqiqatlar

**XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində AMEA tərəfindən "Akademiyada: biblioqrafik nəşrlər və seriyalı akademik tədqiqatlar" adlı tədbir keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Türk Dil Qurumunun prezidenti professor Osman Mert, AMEA Rəyasət Heyəti aparatının üzvləri, Akademiyanın elmi müəssisə və təşkilatlarının direktorları, tanınmış elm və mədəniyyət, ictimaiyyət nümayəndələri, KİV mənsubları və digər qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli açaraq bu il şərəfli tarixi inkişaf yolu keçmiş, yetişdirdiyi görkəmli alimləri ilə ölkə və dünya elmində mühüm töhfələr vermiş AMEA-nın 80 illik yubileyindən bəhs edib. O, dövlət başçısının 18 mart 2025-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən Akademiyada silsilə tədbirlərin həyata keçirildiyini bildirib. Alimin sözlərinə görə, AMEA-nın 80 illik yubiley tədbirləri Qarabağ Universitetində, Akademiyanın Naxçıvan Bölməsində, həmçinin tariximizdə ilk dəfə olaraq respublikamızın hüdudlarından kənarda - Türkiyənin Ankara və İstanbul şəhərlərində təşkil olunub. Bundan əlavə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Elmlər Akademiyaları prezidentlərinin toplantısında da AMEA-nın yubileyi qeyd edilib.

Akademiyanın 80 illiyi ilə bağlı 52 adda monoqrafiya, biblioqrafiya və tanıtım kitabının nəşrinin nəzərdə tutulduğunu söyləyən akademik İsa Həbibbəyli, onlardan 30-nun artıq işıq üzü gördüyünü nəzərə çatdırıb. Müxtəlif istiqamətləri əhatə edən kitabların bir qisminin AMEA-nın 15 təsisçisi və ilk akademiklərinin həyat və yaradıcılıq yoluna həsr olunduğunu deyib: "Görkəmli şəxsiyyətlərin elmi irsini əhatə edən bu nəşrlər AMEA-nın tarixi yaddaşının qorunub saxlanılması baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, həmin kitabları AMEA təsisçilərinin 'elmi pasportu' adlandırmaq olar".

Sərgidə təqdim olunan görkəmli simaların fəaliyyətinə dair kitabların arxiv sənədləri əsasında hazırlandığını vurğulayan akademik İsa Həbibbəyli, bu nəşrlərin AMEA-nın 80 illiyinə dəyərli töhfə olmaqla yanaşı, yeni yanaşma və təfəkkür əsasında yazılmış mühüm elmi mənbə rolunu oynadığını qeyd edib.

AMEA rəhbəri Akademiyanın 80 illiyi ilə bağlı nəşr olunmuş hər bir kitab haqqında qısa məlumat verərək onların dəyərli və zəngin nəşrlər olduğunu vurğulayıb. Həmçinin son iki ildə Akademiyada işıq üzü görmüş kitablar barədə danışıb: "Ulu Öndər Heydər Əliyev, Məhəmməd Füzuli, Nizami Gəncəvi, AMEA-nın təsisçiləri və görkəmli simaları, sabiq prezidentləri və digər görkəmli şəxsiyyətlər haqqında hazırlanmış kitablar, eləcə də tarixi Qarabağ, Şanlı Zəfər, Türk dünyası, azərbaycançılıq məfkurəsi, milli mətbuatla bağlı hazırlanmış nəşrlər gələcək nəsillər üçün qiymətli mənbə, o cümlədən AMEA kollektivinin səmərəli elmi fəaliyyətinin, gərgin əməyinin bəhrəsi kimi dəyərləndirilməlidir".




Alim XI Bakı Beynəlxalq Kitab Sərgisinin müasir dünyanın aktual çağırışlarına uyğun olaraq "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr edildiyini və müasir dövrün elmi-mədəni müstəvisində texnologiyanın insan həyatına təsiri ilə bağlı geniş müzakirələr üçün mühüm platforma rolunu oynayacağına əminliyini ifadə edib. Bildirib ki, sürətlə inkişaf edən texnologiyalar fonunda insanın cəmiyyətdəki mövqeyi və funksional rolunun dəyişməsi, süni intellektin və rəqəmsal texnologiyaların insan fəaliyyəti üzərindəki təsirlərinin elmi və fəlsəfi aspektdə dərindən təhlil olunması sərginin əsas istiqamətlərindən birini təşkil edir.

"Bu sərgi Azərbaycan elminin zəngin ənənələrini və müasir inkişaf istiqamətlərini nümayiş etdirərək, AMEA-nın 80 illiyi çərçivəsində elmimiz və mədəniyyətimizin dünyada tanıdılmasına, geniş təbliğinə xidmət edir", - deyə AMEA-nın prezidenti çıxışını tamamlayıb.

Sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimov AMEA-nın 80 illik yubileyi münasibətilə hazırlanmış və yenicə çapdan çıxmış "Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı" kitabı haqqında məlumat verib. O, müəllifi olduğu kitabın XI Bakı Beynəlxalq Kitab Sərgisində nümayiş etdirildiyini bildirib.

Akademik Arif Həşimov diqqətə çatdırıb ki, kitabda fəaliyyətini dövrünün real şəraitinə uyğun olaraq həyata keçirən AMEA-nın yaranma və inkişaf tarixinin bir sıra əlamətdar hadisələri işıqlandırılıb. Nəşrdə XX əsrin ilk illərində elmi bir qurum kimi formalaşan Akademiyanın tarixi zərurət və elmi tələblərdən doğan təşəkkül prosesi, onun keçdiyi inkişaf mərhələləri və ölkənin elmi həyatındakı əhəmiyyəti təhlil edilib.

AMEA-nın akademik-katibi kitabda, həmçinin elmi-təşkilati inkişaf, aparılmış islahatlar, Elmlər Akademiyasının strukturu, tanınmış elm və ictimai xadimlərinin fikirləri, formalaşan elmi məktəblər haqqında məlumatların da yer aldığını söyləyib.

Tədbirdə Türk Dil Qurumunun başqanı professor Osman Mert çıxış edərək kitabların insan həyatındakı əvəzsiz rolundan bəhs edib. Bildirib ki, sərgidə nümayiş olunan kitabların bir qismi Türkiyə ilə ortaq dəyərləri özündə əks etdirir. Xüsusilə "Molla Nəsrəddin" kimi əsərlər Türk xalqlarının mədəniyyət tarixi və ortaq milli-mənəvi irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu nəşrlər həm tariximizə işıq salır, həm də gələcəyə baxış imkanı yaradır.

Türk Dil Qurumunun başqanı XI Bakı Beynəlxalq Kitab Sərgisinin təşkilatçılarına və iştirakçılarına təşəkkür edib, bu kimi mədəni platformaların xalqlar arasında elmi-mədəni əməkdaşlığı gücləndirdiyini bildirib. O, Türk Dil Qurumu olaraq beynəlxalq sərgidə iştirakdan məmnunluq duyduqlarını ifadə edib.

Daha sonra çıxış edən millət vəkili, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru Elnarə Akimova XI Bakı Beynəlxalq Kitab Sərgisinin müxtəlif məfkurəyə, missiyaya və peşəyə sahib insanları bir araya gətirərək fikir və ideya mübadiləsi üçün geniş imkanlar açdığını bildirib. Qeyd edib ki, sərgidə təqdim olunan kitabların bir qismi gələcəyə ünvanlanıb və məhz buna görə də həmin nəşrlər mənəvi həyatımıza gələcəyin aydınlığından işıq salır, cəmiyyətin intellektual inkişafına töhfə verir.

Elnarə Akimova çıxışında, həmçinin Ədəbiyyat İnstitutunun mühacirət ədəbiyyatı ilə bağlı araşdırmalarından danışıb. Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə və digər milli fikir ziyalılarının yaradıcılığının öyrənilməsinin xüsusi önəm daşıdığını söyləyib. Bildirib ki, institutda müstəqillik dövrü ədəbiyyatımızın tədqiqi istiqamətində də əhəmiyyətli işlər görülür, monoqrafiyalar hazırlanır, yeni kitablar nəşr olunur. Bu tədqiqatlar milli ədəbiyyatımızın 100 illik inkişaf yoluna obyektiv münasibəti göstərir.

O, bu kimi layihələrin gələcəkdə davamlı şəkildə həyata keçiriləcəyinə və milli ədəbiyyatımızın zəngin irsinin bundan sonra da yüksək tribunalardan səsləndiriləcəyinə əminliyini ifadə edib.

AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) Biblioqrafiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva XI Bakı Beynəlxalq Kitab Sərgisinin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik və AMEA Mərkəzi Elmi Kitabxanasının 100 illik yubileyləri ilə üst-üstə düşməsini əlamətdar hadisə kimi qiymətləndirib.

O, Akademiyanın 80 illik yubileyi münasibətilə Mərkəzi Elmi Kitabxana tərəfindən AMEA-nın təsisçilərinin, görkəmli ellm adamlarının biblioqrafiyalarının çap edildiyini diqqətə çatdırıb.

Aytən Əliyeva bildirib ki, MEK-in biblioqrafik çap məhsulları uzun illərdir Elmi biblioqrafiya şöbəsi tərəfindən hazırlanır. 1964-cü ildən etibarən biblioqraf R.Kazımovun təşəbbüsü ilə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası altında çoxsaylı biblioqrafik göstəricilər tərtib edilərək çap olunub.

O, bu ildən AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin göstərişi ilə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası adı ilə silsilə biblioqrafik göstəricilərin nəşr olunmasının AMEA-nın 80 illik yubileyinə əhəmiyyətli töhfə olduğunu vurğulayıb.

Aytən Əliyeva bu kimi sərgi və tədbirlərin gənc nəslin maariflənməsi və elmi irsə marağın artırılması baxımından vacibliyini vurğulayıb.

Tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi professor Qəzənfər Paşayev çıxış edərək bəşəriyyətin ən böyük kəşfinin kitablar olduğunu söyləyib. Bildirib ki, Azərbaycan xalqının mənəvi dünyasında kitab həmişə özünəməxsus dəyərli yer tutub, kitaba hər zaman böyük sevgi və hörmət olub.

"İnsanların yaratdıqları kitablarda yığılıb, nəsildən nəsilə, əsirdən əsrə keçib və bəşəriyyət bu kitablar sahəsində inkişaf edərək yeni mərhələyə keçib", - deyə o, əlavə edib.

Professor Qəzənfər Paşayev AMEA-da, eləcə də Ədəbiyyat İnstitutunda son illərdə akademik İsa Həbibbəylinin rəhbərliyi ilə görülən işləri diqqətə çatdırıb, sərginin işinə uğurlar arzulayıb.

Qeyd edək ki, "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunan XI Bakı Beynəlxalq Kitab Sərgisi 7 oktyabr 2025-ci il tarixinədək davam edəcək.

YUBİLEY

# Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunan elmi sessiya





**Sentyabrın 29-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunan elmi sessiya keçirilib.**

Elmi sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva XX əsrin əvvəlinin Azərbaycan mədəniyyətində böyük renessans dövrü olduğunu deyərək, bu dövrdə Azərbaycan musiqisini ən uca zirvələrə yüksəldən Üzeyir Hacıbəylinin Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas, publisist, dramaturq, pedaqoq, ictimai xadim olduğunu bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi ilə bağlı 3 fevral 2025-ci il tarixli Sərəncamını xatırladan G.Baxşəliyeva bununla bağlı AMEA-da bir sıra tədbirlərin keçirildiyini, Şərqşünaslıq İnstitutunun da elmi sessiya təşkil etdiyini bildirib.

Üzeyir Hacıbəylinin yaratdığı əsərlərin Azərbaycan xalqının mədəniyyətinin varlığının, yaşamının təcəssümü olduğunu deyən akademik G.Baxşəliyeva onillər keçməsinə baxmayaraq, bu gün də həmin operettaların, filmlərin böyük zövqlə izlənildiyini qeyd edib.

Elmi sessiyada Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi məruzə oxuyub. Üzeyir Hacıbəyli ilə bağlı çoxsaylı arxiv sənədlərini araşdırdığını deyən Solmaz Rüstəmova-Tohidi bu sənədlərdə bir neçə cildlik kitabı əhatə edəcək materialların olduğunu və yaxın aylarda onun ilk cildini çapa təqdim edəcəyini bildirib. Məruzəçi həmin cilddə yer alacaq Üzeyir Hacıbəylinin həyat yoldaşı ilə məktublaşmasına aid nümunələri diqqətə çatdırıb. Onların Qori seminariyası dövründən başlanan tanışlığından danışan S.Rüstəmova-Tohidi çıxışında həmçinin Ü.Hacıbəylinin pedaqoji və jurnalist fəaliyyətinə də nəzər salıb. Məruzəçi Ü.Hacıbəylinin Hadrut, Bibiheybət məktəblərində, "Səadət" məktəbində dərs deməsindən, "Tərəqqi", "Azərbaycan" qəzetlərində redaktor kimi fəaliyyətindən, "Açıq söz" və digər qəzetlərdə yazılarından bəhs edib.

# Bəxtiyar Vahabzadənin 100 illiyi münasibətilə



**AMEA-nın Gəncə Bölməsində görkəmli ziyalımız, yazıçı və alim Bəxtiyar Vahabzadənin 100 illiyinə həsr olunan seminar təşkil edilib.**

"Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı" mövzusundakı seminarda bu görkəmli ziyalımızın Azərbaycanın ictimai və siyasi həyatında oynadığı əhəmiyyətli roldan söhbət açılıb.

Seminarı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev bugünkü tədbirin Azərbaycan Respublikası Prezidentinin "Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd edilməsi haqqında" 21 fevral 2025-ci il tarixli Sərəncamına uyğun olaraq, bu əlamətdar tarixə həsr edilmiş tədbirlər planı üzrə həyata keçirildiyini vurğulayıb.

O, görkəmli şair, dramaturq, ədəbiyyatşünas, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Ali Sovetinin deputatı Bəxtiyar Vahabzadənin onilliklər ərzində özünün bədii və elmi-publisistik, eləcə də millətpərəst fəaliyyətilə vətənimizin tarixinə, müstəqilliyimizin mənəvi əsaslarının inkişafına, cəmiyyətimizin yetkinləşməsinə böyük töhfələr verdiyini vurğulayıb.

Tədbirin gedişində Bəxtiyar Vahabzadənin Ulu Öndər Heydər Əliyev və bu dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin əsaslarının formalaşdırması yolundakı misilsiz fədakarlığı haqda fikirlərini, həmçinin Ümummilli Liderin bu böyk ziyalı və ictimai xadimimizin cəmiyyətə xidmətləri haqda dediyi sözləri özündə əks etdirən videoçarx da nümayiş olunub.

Seminarda AMEA-nın Gəncə Bölməsinin Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva "Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığında "Gülüstan" poeması" mövzusundakı çıxışında sovet dövrünün basqıları şəraitində yazılmış sözügedən əsərin xalqımızın milli düşüncəsinin oyanışında əhəmiyyətli rol oynadığını bildirib.

AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov "Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycan dili" adlı məruzəsində bu böyük ziyalının Ana dilimizin qorunması və cəmiyyətimizdəki başlıca rolunun təmin olunması yönündə yorulmaz fəaliyyətindən danışıb.

Bölmənin Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin elmi işçisi Sənubər Abdinova "Bəxtiyar Vahabzadənin dramaturgiyası" mövzundakı çıxışında bu böyük yazıçının səhnə əsərlərində millilik və tarixilik prinsiplərinin parlaq şəkildə əks olunduğuna, eləcə də Vahabzadə poetik və nəsr dilinin zənginliyi, səlisliyi və xəlqiliyi məsələlərinə diqqət çəkib.

Çıxışlar ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

Tədbirin sonunda akademik Fuad Əliyev maraqlı çıxış və mülahizələrə görə iştirakçılara minnətdarlıq bildirib.

# Mərkəzi Elmi Kitabxananın 100 illiyinə həsr olunmuş sənədli film nümayiş etdirilib

**Bu il Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) yaranmasının 100 ili tamam olur. Kitabxananın 100 illiyi ilə əlaqədar hazırlanmış "100 illik tarix" adlı sənədli film sentyabrın 30-da "Mədəniyyət" televiziyası tərəfindən nümayiş etdirilib.**

Sənədli filmə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov, kitabxananın əməkdaşları və oxucular çəkilib.

MEK-in tarixi, fondları, missiyası və hədəfləri haqqında məlumatları özündə əks etdirən sənədli filmdə video və fotoxronikalardan, arxiv materiallarından istifadə olunub.




AMEA Naxçıvan Bölməsində

# Türkiyənin tanınmış tarixçisi İlber Ortaylı ilə görüş

**Tanınmış türkiyəli tarixçi-alim, Türk Tarix Qurumunun fəxri üzvü, yazıçı İlber Ortaylı ötən həftə Naxçıvana səfəri zamanı bölgədəki elmi mühitlə tanış olub, ziyalılarla görüşüb.**




Səfər çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsini ziyarət edən professor bölmənin sədri, akademik İsmayıl Hacıyevlə görüşüb. Görüş zamanı akademik İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin fəaliyyəti, aparılan elmi araşdırmaların əsas istiqamətləri və əldə edilən uğurlar haqqında ətraflı məlumat verib. Bölmənin fəaliyyəti dövründə Naxçıvanın tarixinin, arxeologiyasının, etnoqrafiyasının, folklor və dil xüsusiyyətlərinin, mədəni dəyərlərin araşdırılmasında, eləcə də elmi potensialın üzə çıxarılmasında, yerli və beynəlxalq elmi mühitə inteqrasiyasında mühüm rolunu diqqətə çatdırıb.

Bölmə barədə fikirlərini dilə gətirən professor İlber Ortaylı AMEA Naxçıvan Bölməsinin fəaliyyətini yüksək qiymətləndirib.

Sonda akademik İsmayıl Hacıyev qonağa müəllifi olduğu "Naxçıvan Muxtar Respublikasının yaranması və inkişaf tarixi" monoqrafiyasını, "Naxçıvan abidələri ensiklopediyası" və üçcildlik "Naxçıvan tarixi" kitablarını hədiyyə edib.

Naxçıvanda olmaqdan məmnunluq duyan professor İlber Ortaylı burada müşahidə etdiyi zəngin tarixi irsi, bu irsin qorunması istiqamətində görülən işləri və elmə verilən dəyəri yüksək qiymətləndirib.

# "Yarımçıq qalmış roman"ın təqdimatı

**AMEA-nın Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədovun "Yarımçıq qalmış roman" adlı kitabının təqdimatı keçirilib.**



Nəşrdə 27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsində tarix yazan, vətən uğrunda qəhrəmancasına canını fəda edib Suqovuşan döyüşlərində şəhidlik zirvəsinə ucalan şəhid leytenant Nicat Məmmədlidən bəhs olunub.

Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev müəllifi yeni nəşr münasibətilə təbrik edib. Akademik kitabın ideya-məzmun yükündən, müəllifin tədqiqatçı və publisist qələminin gücündən danışıb. O, əsərin təkcə bədii deyil, həm də tarixi və mənəvi dəyər daşıdığını, oxuculara şəhidlik zirvəsinə ucalan bir ömür yolunu təqdim etdiyini vurğulayıb. İsmayıl Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa etməsindən, şəhid Nicat Məmmədli kimi igidlərin adlarının bu zəfərin əsas sütunlarından biri kimi daim ehtiramla xatırlanacağından qürur hissi ilə söz açıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva çıxışında kitabın yalnız şəxsi taleyi deyil, bütöv bir xalqın ruhunu əks etdirdiyini, şəhidin uşaqlıq illərindən tutmuş məktəb həyatı, ailə tərbiyəsi, vətənpərvər düşüncələri və əsgərliyinin səmimiyyətlə qələmə alındığını vurğulayıb.

Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Qələbədə şəhidlərin misilsiz rolu olduğunu və 44 günlük Vətən müharibəsində Nicat Məmmədli kimi igidlərin Azərbaycanın tarixini yazdığını bildirib.

AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent Səbuhi İbrahimov kitabı yüksək qiymətləndirərək bu əsərin sadəcə bir gəncin ömür yolunu əks etdirmədiyini, eyni zamanda, Azərbaycanın yaxın tarixində yazılmış qəhrəmanlıq dastanının bir parçası olduğunu söyləyib.

AMEA Naxçıvan Bölməsi Nəşriyyatının redaktoru, şair Qafar Qərib şəhidlərin həyatının ədəbiyyatda əks olunmasının həm tarixi yaddaşın qorunması, həm də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından vacib olduğuna diqqət çəkib.

Daha sonra müəllif-İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov şəhidin ailəsi ilə təsadüfi tanışlığı, kitabının əhəmiyyəti və ərsəyə gəlmə mərhələləri barədə danışıb, ürək sözlərini səsləndirib. Eyni zamanda, tədbirin təşkilinə və yaradıcılığına göstərilən diqqətə görə minnətdarlıq edib.

Şəhidin valideynləri də çıxış ediblər. Nicatın xatirəsinin əbədiləşdirilməsi üçün bu kitabın yazılmasını xahiş etdiklərini bildirərək müəllifə və təşkilatçılara təşəkkürlərini çatdırıblar. Onlar Nicatın uşaqlıqdan mərd, qürurlu və vətənsevər bir övlad olduğunu, bu kitabla təkcə Nicatın yox, onun timsalında bütün şəhidlərin ruhunun yad olunduğunu qeyd ediblər.

Çıxışlar dinlənildikdən sonra İsmayıl Hacıyev "Şuşa zirvədən uca" və müəllifi olduğu "Culfa rayonunun tarixi" adlı kitabını şəhidin ailəsinə təqdim edib.

# Üzeyir Hacıbəyli və Azərbaycan ədəbi dili

**Üzeyir Hacıbəyli opera sənətinin banisi və klassik yaradıcısı, musiqi nəzəriyyəçisi, görkəmli bəstəkar olmaqla bərabər ədəbi dilimizin ən mürəkkəb və çətin dövrü olan XX əsr ədəbi dilinin inkişafında mühüm işlər görmüşdür. Ədib mətbuat və ədəbiyyat aləminə xalqın maarif və mədəniyyətə böyük ehtiyac olduğu bir dövrdə gəlmişdir. Üzeyir bəy "Molla Nəsrəddin", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" və digər mətbuat orqanlarında dərc etdirdiyi məqalələrdə ana dilinin saflığının qorunmasını önə çəkirdi. "Dilimizi hansı vasitələrlə öyrənək və zənginləşdirək" adlı məqaləsində müəllif ana dilində təhsilin aparılmasının əhəmiyyətindən, dilimizin yad ünsürlərdən təmizlənməsinin vacibliyindən yazırdı.**



Ü.Hacıbəyli qəzet və jurnal səhifələrində ana dili və onun inkişaf etdirilməsi ilə bağlı problemlərə aid bir sıra məqalələr nəşr etdirmişdir. Bu məqalələrdə ədibin sözü ilə desək, məişət tərzi dəyişdikcə lisan da dəyişir. Həyatda baş verən dəyişikliklərlə bağlı yeni anlayışlar yaranır, bunlar isə yeni sözlər və ifadələrin yaranmasını tələb edir. Həqiqətən, on il bundan irəliki sözlərlə bugünkü əhval və vəziyyət ifadə edilməz, yeni anlayışların irəliki sözlərlə ifadəsini obrazlı şəkildə ifadə edərək yazır ki, avtomobil olduğu yerdə öküz arabası ilə kifayətlənmək olmaz.

Ü.Hacıbəyli ana dili uğrunda mübarizəyə hələ Zaqafqaziya Qori müəllimləri seminariyasında oxuyan zaman başlamışdır. "Qori seminariyası harada olmalıdır" məqaləsində Qori seminariyasında təhsil alan tələbələrə bir neçə il əvvəl hətta "evdən kənarda öz dilində danışmağı qadağan edən" qaydadan söz açaraq yazırdı ki, ana dili tədris edilmir, tamam unudulmuş fənn kimi baxılır. Ana dili artıq gimnaziyada əvvəllər olduğu kimi tədris edilmir, saatlar azaldılır, dərslər rus dilində aparılır. Ü.Hacıbəyov 1905-ci ildə "Həyat" qəzetində ana dilinə qarşı yönələn hücumlara cavab vermişdir. 1906-cı ildə "İrşad" qəzetində nəşr olunan "Hansı vasitələrlə dilimizi öyrənib kəsbi-maarif etməliyik" adlı məqalələrində ana dilinin inkişaf etmək yollarını müəyyənləşdirmişdir. O, "Петербургская ведемости" qəzetində yayımlanan ana dilimizə qarşı yönəlmiş tənqid və böhtanlara kəskin cavab vermişdir. Dilimizin yoxsulluğundan danışanlara cavab olaraq yazırdı ki, bizim türk dilimiz Avropa alim və filosoflarının rəyinə görə ən vüsətli və kamil bir dildir ki, onun vasitəsi ilə insan ən ali fikirlərini və dəqiq hisslərini bəyan etməyə qadirdir.

Dil və onun aktual problemləri dahi sənətkarın bütün yaradıcılığı boyu diqqət mərkəzində olmuşdur. Bu dövrdə ədəbi dilin dörd istiqamətdə inkişaf etməsi ilə bağlı yazırdı: Birincisi "Füyuzat" jurnalının eləcə də Hüseyn Cavidin, Əli bəy Hüseynzadənin əsərlərinin dili Osmanlı dilindən, demək olar ki, fərqlənmirdi. İkincisi "Tərəqqi", "İrşad" və s. qəzetlərin dili olub, bəzi qrammatik məqamlar nəzərə alınmazsa, köhnə Azərbaycan dili - Nəsiminin, Füzulinin əsərlərinin dili ilə səsləşirdi. Üçüncüsü daha çox yeni Azərbaycan dili Abdulla Şaiqin, Abbas Səhhətin dilinə uyğun olan ədəbi-bədii dil, nəhayət, dördüncüsü ümumxalq danışıq dili ilə eyni olan bir dil idi ki, "Molla Nəsrəddin"çilərin əsərlərinin dili kimi işlənirdi. Ədib bir dilçi həssaslığı ilə bu dövrdəki üslubları, dəqiq surətdə səciyyələndirərək yazırdı ki, əgər əhalinin hər sinfinin özünəməxsus bir qəzetəsi olsa dilimiz əldən gedər.

Azərbaycan dilinin zənginliyini, qədimliyini, dillərdən üstünlüyünü bir mütəfəkkir kimi təhlil edən ədib 1906-cı ildə "İrşad" qəzetində dərc etdirdiyi məqaləsində dilin ictimai mahiyyəti və əhəmiyyəti haqqında yazırdı ki, dil həyati-bəşəriyyətin ən ümdə müəssirlərindən biridir desəm, xəta etmərəm, zəndindəyəm. Bütün ixtiralar və kəşfiyyatın ağıllılarını heyran qoyan səmərəsi hüsulə və bu səmərələrin az bir müddətdə aləm icra yayılmasına insanın öz həməsrlərinin hal və ovzaidən xəbər almasına, minlərcə il bundan əqdəm yer üzünü iskan babalarımızın həyat və məişəti ondan sonra yaşayacaq adamlarımızın həyati müstəqbələsinə və vaqe olacaq hadisatın necə bir halda cərəyan edəcəyinə təqribən və təxminən də olmuş olsa, vaqif olmasına və həyat və məişəti bəşəriyyətin rifah və səadət üzrə ömür edilməsinə dilin zor bir təsiri olubdur. İnsanın hər bir ehtiyacını, ali fikirlərini qəlbində yaranan şairanə hisslərini ən yaxşı ifadə edən vasitə dildir. Göründüyü kimi, bu cümlələrdə dilin əsas mahiyyəti və vəzifələri güclü dilçi həssaslığı ilə müəyyənləşdirilmişdir.

"Həyat" qəzetində yazdığı məqalələrində bütün dillərin hüquq bərabərliyi, heç bir dilin digərindən üstün olmaması, təhsilin millətlərin öz ana dilində aparılması, dövlət idarələrində yerli əhalinin dilinin işlədilməsi kimi üç prinsipial müddəa irəli sürülmüşdür. Ü.Hacıbəylini düşündürən məsələlərdən başlıcası çar rejimi tərəfindən "tatar dili" adlandırılaraq, hər vasitə ilə sıxışdırılan Azərbaycan dilinin inkişaf etdirmək idi. Bu məqsədlə "Həyat" qəzetində nəşr olunan dil ilə bağlı elmi məqalələrində bu gün də öz nəzəri əhəmiyyətini itirməyən fikirlər söyləmişdir. "Üzeyir" imzası ilə "Həqiqət" qəzetinin 24 yanvar 1910-cu il tarixli nömrəsində çap etdirdiyi "Dil" adlı məqaləsində yazır: "...hər bir millətin bütün milliyyəti ilə bəqasına baş səbəb onun dilidir və dilinin tərəqqisidir". Dilin mahiyyəti ədib tərəfindən xarakterizə edilərək 1906-cı ildə İrşad qəzetində yazılır ki, "...insan öz dilini bilməyəndə din də gedir, dil də gedir, millət də gedir". Bir millətin ki dili batdı, onda o millətin özü də batar"

Ü.Hacıbəyli Azərbaycan dilində elmi dili inkişaf etdirən ədibdir. O dövrdə ictimai-siyasi həyatla bağlı mətbuatda xeyli əcnəbi sözlər işlədilmişdir. Bu sözlərin mənası oxuculara yad idi, tanış deyildi. O əcnəbi sözlərin mənasını və işlədilməsini bilmək, ana dilin incəliklərinə yiyələnmək üçün bir vasitəyə ehtiyac duyulurdu. Belə bir vasitə isə lüğət idi. Ü.Hacıbəyli luğətə əcnəbi sözlərin və ana dilini kamil öyrənmək işində, xalqın tərəqqisində, maariflənməsində və mədəniləşməsində mühüm rolu olan bir vasitə kimi baxırdı. Müəllif yazır: "Bunlar öz lisanlarını kamilən öyrənmək üçün qəzetlərdən müstəfid olmaq istədikdə qamuş və lüğət kitabçalarını toşid etməlidirlər. Bunu da bilməlidir ki, qamuşsuz alim də olmuş ola - yazmaq, oxumaq çox çətindir. Qamuş hər bir yazıcını fahiş xətalardan çəkindirib, imla və inşasının səhhətini təmin edər".Ü.Hacıbəyli 1906-cı ildə İrşad qəzetində "Lüğət" məqaləsində yazır ki, "qərəz görünür ki, lüğət qayırmağın təhərini bilən hələ yoxdur. Amma mən lüğət qayırsam çox yaxşı qayıraram. Hər sözün mənasını qandırandan sonra bir və iki timsal gətirib sözün mənasının lap yaxşı qandıraram"

Müəllif rus, Avropa mənşəli sözləri, eləcə də beynəlmiləl terminləri lüğətdə verməklə kifayətlənmir, eyni zamanda onların yazılışına xüsusi diqqət yetirmisdir. Lüğətin müqəddiməsində sözlərin necə yazılması və ondan necə istifadə edilməsi barədə yazılır ki, biz dəxi qəbul etmiş olduğumuz əcnəbi sözləri müxtəlif şəkildə yazırıq, məsələn, latınca olan ekonomiya sözünü bəzimiz "ekonomiya", bir paramız "gkonomiə", digərimiz "eqonomi" və sair tərzində yazırıq. Biz isə sözləri rusca yazılan kimi yazmişıq, məsələn, hər yerdə rusca "k" eşidilən hərflərin əvəzinə "q" istimal etmişik. Eyni zamanda, lüğətdə Avropa mənşəli sözlərin bir qisminin tələffüzünə uyğun yazılması və bəzileri-nin ərəb və fars sözləri ilə əvəzlənməsi haqqında belə bir izahat verilir: hal-hazırda türki lisanına girmiş ərəb və fars əlfazısından basqa, bir qədər də əcnəbi Avropa təbiratı siyasiyəsi daxil olduğundan həmin tədbirlər dəxi əcnəbi tələffüzü ilə yazılıb mənası bəyan edilmişdir və bir çoxunun ərəb və farsca müqabili yazılmışdır. Lüğətdə verilən beynəlmiləl terminlərin əsasən böyük bir hissəsi tərcümə edilmədən olduğu kimi saxlanılmışdır. Alınma terminlərin qarşılığı düzgün müəyyənləşdirilmiş, bəzi terminlərin izahı bir neçə sözlə verilmişdir. Məsələn, vosstanie - qiyam, üsyan, bitva - dava, vuruşma, voyna - hərb, müharibə, cəng, dinastiya - xanədan, səltənət, sülalə, qosudarstvo - padşahlıq, dövlət və s. Bəzi terminlərin Azərbaycan dilində konkret qarşılığı göstərilmiş, onların mənası bir neçə sözlə qeyd edilmişdir. Məsələn, diviziya - əsgəri firqəsi, diktatura - hökumət mütləqa, müvəqqəta, bülleten - seçki kağızı, rəsmi elan, arxıv - köhnə kağız dəftərxanası.

Lüğətin "Rusi-türk" hissəsi terminoloji lüğətlərin tərcümə tipini xatırladır. Burada rus və Avropa mənşəli sözlər əlifba sırası ilə sıralanmışdır.

Lüğətin "Türki-rusi" hissəsi ikili tərcümə və izahlı xarakterlidir. Bəzi terminlər üçün Azərbaycan dilində konkret qarşılıq müəyyənləşdirilməmiş, onların mənası bir neçə sözlə şərh edilmişdir.

Ü.Hacıbəylinin 1907-ci ildə ibtidai məktəblərin birinci və ikinci şöbələri üçün tərtib edilmiş hesab dərsliyi hələ o dövrdə ziyalıların diqqətını cəlb etmişdir. "Tərəqqi" qəzeti yazırdı: "Hesab məsələləri" müəllim Üzeyirbəy Hacıbəyovun əsəridir, gözəl üsul ilə tərtib edilmisdir. Azərbaycan türki şivəsində olduğundan məhəlli məktəblər üçün faydalı və lazımlıdır". Ü.Hacıbəyovun "Hesab məsələləri" dərsliyinə qədər riyaziyyata dair Azərbaycan dilində heç bir mənbə, dərslik olmamışdır. Dərslik 3 hissədən (birrəqəmli ədədlər, yuvarlaq onluqlar, ikirəqəmli ədədlər) ibarət olub, bura daxil edilmiş məsələlər pedaqoji tələblərə cavab verən ardıcıllıqla düzülmüşdür. O dövrün pedaqoqları dərsliyi Azərbaycan məktəbləri üçün faydalı və lazımlı vəsait hesab etmişdir. Kitabçada 352 məsələ verilmişdir. Ü.Hacıbəyli dilçilikdə ahəng qanunu, səs uyumu, sinharmonizm terminləri ilə adlanan və sonralar bir çox elmi tədqiqatların mövzusu olmuş bu fonetik hadisəni bir dilçi-mütəxəssis həssaslığı ilə duymuş və hələ 1908-ci ildə onun dilin gözəlliyi üçün mühüm amil olduğunu vurğulamışdı. Qeyd edir ki, türk dilində "hansı ki", "hansılar ki", sözü yoxdur. Mən də deyirəm ki, bu sözü tərcümə üsulu ilə dərs verən müəllimlər, rusun "kotorıy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxardıblar; onun istemalı lüzumsuz bir ağırlıqdır".

"Dilimizi korlayanlar" məqaləsində yazılır ki, bizim axundlar ilə artistlərimiz bir-birinə zidd və müxalif siniflərdir. Elə bunun özü ki, mən axund ilə artisti bərabər qoydum, onların heç birinin xoşuna gəlməyəcəkdir. Faktlarla əsaslandırılır ki, axund bir adama salam verəndə farscadan tərcümə eləyir, dilimizin sərf-nəhvini bilmir, ona görə də mətləb dolaşıq düşür. Artistlərin afişasında yazır: "Bu gün Tağıyevin teatrında oynanılacaqdır suznak bir faciə "Gaveyi ahəngdar. Fasilələrdə çalacaq tarzən və oxuyacaq xanəndə, filanın rolunu oynayacaq məşhur filan artist".

Bununla da Üzeyir bəy bütün həyatı boyu silsilə məqalələrində ana dilinin aktual problemlərinə xüsusi diqqət yetirmiş və Azərbaycan dilinin saflığının qorunması, onun inkişaf etdirlməsi istiqamətində ardıcıl olaraq mübarizə aparmışdır.

**Sayalı SADIQOVA**
**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor,**

## Şəhid arxeoloq Elşən Salayevin xatirəsinə həsr olunmuş tədbir

**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunda 27 sentyabr - Anım Günü ilə əlaqədar olaraq Vətən müharibəsində şəhid olmuş arxeoloq Elşən Salayevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.**



Tədbir ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhunun sükutla yad edilməsi ilə başlayıb. Ardınca AMEA Arxeologiya və Antropologiya İnstitutun direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev çıxış edərək 44 günlük Vətən müharibəsinin Azərbaycanın tarixində önəmli bir hadisə olmasından, dünya çapında dövlətimizin və xalqımızın iradəsini və nüfuzunu təsbit etməsindən danışıb. "Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun azad etdiyi torpaqlarımızda institut əməkdaşlarının apardığı tədqiqatlar şəhidlərimizin ruhu qarşısında yerinə yetirdiyimiz vəzifə borcumuz və onların xatirəsinə bir ithafdır", - deyə Fərhad Quliyev çıxışında vurğulayıb.

Daha sonra institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Mircavid Ağalarov söz alaraq şəhid Elşən Salayevin həyatı və elmi fəaliyyəti barədə tədbir iştirakçıları qarşısında çıxış edib. Çıxışında M.Ağalarov şəhid Elşən Salayaveyin elmə marağını, gələcək üçün planlarını və vətənpərvərliyini xüsusi vurğulayaraq onun ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildiyini bildirib. "Qədim Bərdədəki Torpaqqala abidəsində aparılan arxeoloji qazıntılarda Elşən elə böyük hörmət qazanmışdı ki, hətta şəhid olduqdan sonra arxeoloji araşdırmada iştirak edən İrlandiyanın Dublin Universitetinin əməkdaşı David Stone İngiltərədə Oksford Universitetində müdafiə etdiyi dissertasiyasını onu xatirəsinə həsr etmişdi", - deyə Mircavid Ağalarov bildirib.

Tədbirdə çıxış edən Bakı Dövlət Universitetinin Tarix fakültəsinin professoru Lalə Əliyeva şəhid Elşən Salayevi zəhmətkeş, perspektivli tələbə kimi xatırladığını deyib və onun Vətənə sarsılmaz bağlılığından danışıb. Professor Lalə Əliyeva vurğulayıb ki, ingilis dilini sərbəst bilən Elşənin arzusu arxeologiya üzrə təhsilini Avropa elmi mərkəzlərinin birində davam etdirib, Azərbaycanda arxeoloji tədqiqatlarda iştirak etmək idi.

Tədbir iştirakçıları yekdilliklə yaxın gələcəkdə şəhid Elşən Salayevin xatirəsini yaşadacaq gənc arxeoloqlar üçün mükafatın təsis edilməsi təşəbbüsünü dəstəkləyiblər.

Seminarın sonunda şəhid arxeoloqun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

## Birinci Türkoloji Qurultayın ideoloji-fəlsəfi aspektləri və çağdaş türk dünyası

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri f.ü.f.d., dosent Faiq Ələkbərlinin "Birinci Türkoloji Qurultayın ideoloji-fəlsəfi aspektləri və çağdaş türk dünyası" mövzusunda ümuminstitut seminarı keçirilib.**



Seminarın moderatoru f.ü.f.d. Məhəmməd Cəbrayılov açaraq tədbir iştirakçılarını salamladıqdan sonra sözü əsas məruzəçi Faiq Ələkbərliyə verib. O, çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birinci Türkoloji Qurultayın 90-illik yubileyi ilə bağlı sərəncamında qurultayın tarixi əhəmiyyəti qeyd olunarkən belə bir məsələ xüsusi vurğulanır: "Türkoloji qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş problemlərlə bağlı böyük perspektiv əhəmiyyətə malik qərarlar qəbul edilmiş, lakin qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır"- deyərək bildirib. Türkoloji qurultayda müzakirə olunan əsas məsələlərdən biri də milli terminologiya məsələsi, daha doğrusu milli dilin təkmilləşdirilməsi olmuşdur. Alim çıxışında bir xalqın dil sütunu, fəlsəfəsi, mədəniyyəti onun əlifbasıdır deyərək vurğulayıb.

Sonra seminarda çıxış edən Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d. professor İlham Məmmədzadə Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşdüyünü vurğulayaraq milli ideoloji baxımdan əhəmiyyətini təhlil edərək seminar iştirakçılarına məlumat verib.

Seminarın sonunda fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Əli İbrahimov, f.e.d., prof. Rəbiyyət Aslanova, f.e.d. Füzuli Qurbanov, f.ü.f.d. Zaur Rəşidov və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

YENİ NƏŞRLƏR

# Tarixçi alimin kitabı Almaniyada çap olunub

**AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı şöbəsinin baş elmi işçisi tarix elmləri doktoru, dosent Nazim Məmmədovun Almaniyada "Heydər Əliyev və Qarabağın inkişaf strategiyası (1960-cı illərin sonu - 1980-ci illərin əvvəlləri)" ("Heydar Aliyev and the development strategy of Karabakh (late 1960s - early 1980s)" kitabı (328 səhifə) nəşr olunub.**




"STELLA" nəşriyyatında çap edilən kitabın elmi redaktoru A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktor müavini tarix elmləri doktoru, dosent İlqar Niftəliyev və Əliyevşünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Ədalət Qasımovdur.

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın 1960-cı illərin sonundan 1980-ci illərin əvvəllərinə qədər olan dövrü əhatəli şəkildə öyrənilir. XX əsrin 60-cı illərinin sonlarında Heydər Əliyevin Respublika rəhbərliyinə gəlişi ilə Azərbaycanda idarəetmə sisteminin təkmilləşdirilməsi prosesi başlanıb. Bu dövr dövlətimizin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, milli dirçəlişin başlanması və Qarabağın sosial, iqtisadi və mədəni sahələrinin dinamik inkişafı ilə müşayiət olunub. Milli oyanışa şərait yaradan amillərin gücləndiyi bir şəraitdə 1970-ci illərdə Heydər Əliyev Ermənistanın Azərbaycana yeni əsassız ərazi iddialarının qarşısını qətiyyətlə aldı. Ümummilli lider bu dövrün digər mühüm məsələlərinin araşdırılması və təhlili ilə də məşğul olub.

Kitabda digər mühüm məsələlər də təhlil və tədqiq edilir.

# Akademik Zemfira Səfərovanın dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş monoqrafiyası ingilis dilində

**AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Musiqi tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, tanınmış musiqişünas alim, akademik Zemfira Səfərovanın dahi Azərbaycan bəstəkarı və ictimai xadimi Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş "Üzeyir Hacıbəyli həyatı və yaradıcılıq fəaliyyəti" adlı monoqrafiyası ingilis dilində çapdan çıxıb.**




"Elm" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, məsul redaktoru isə Memarlıq və İncəsənət İnstitutunun direktor müavini sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalovdur.

Dahi bəstəkarın həyat və yaradıcılığının, həmçinin elmi və pedaqoji fəaliyyətinin işıqlandırıldığı monoqrafiyaya akademik İsa Həbibbəyli "Üzeyir Hacıbəyli sənətinin elmi varisi" adlı Ön söz yazıb.

Kitabda Üzeyir Hacıbəylinin çoxşaxəli fəaliyyəti geniş şəkildə təhlil olunur, onun ədəbiyyat, incəsənət, təhsil və mətbuat sahəsində, xüsusilə Azərbaycan musiqi mədəniyyətindəki misilsiz rolu və ölməz əsərləri ətraflı şəkildə işıqlandırılır. Müəllif, həmçinin Üzeyir Hacıbəylinin Azərbaycan peşəkar musiqisinə gətirdiyi yenilikləri, "Sənsiz" və "Sevgili canan" romanslarının əhəmiyyətini, "Azərbaycan xalq musiqisinin əsasları" əsəri ilə qoyduğu nəzəri bünövrəni xüsusi vurğulayır. Nəşrdə bəstəkarın publisist və elm təşkilatçısı kimi fəaliyyəti də diqqət mərkəzindədir.

Akademik Zemfira Səfərova kitabda Üzeyir Hacıbəylinin irsini yalnız sənət müstəvisində deyil, həm də milli kimlik, vətənpərvərlik və elmi irs prizmasından təqdim edir. Onun dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı apardığı çoxillik tədqiqatların nəticəsi olan bu əsər, Üzeyirşünaslığın fundamental mənbələrindən biri kimi qiymətləndirilir.

Qeyd edək ki, akademik Zemfira Səfərova yarım əsrdən artıq bir müddətdə Üzeyir Hacıbəylinin ölməz irsini hərtərəfli araşdırıb, çoxsaylı monoqrafiya və məqalələrlə yanaşı, müxtəlif ölkələrdə onun haqqında elmi əsərlər nəşr etdirib. Onun elmi fəaliyyəti nəticəsində Üzeyir Hacıbəyli yaradıcılığı yalnız Azərbaycanda deyil, dünya musiqişünaslıq elminin də diqqət mərkəzinə çıxarılıb.

Böyük bəstəkar və ictimai xadim Üzeyir Hacıbəylinin həyatı və ölməz sənətinə həsr olunmuş, oxuculara ingilis dilində təqdim edilən bu monoqrafiya akademik Zemfira Səfərovanın dahi bəstəkarın 140 illik yubileyi münasibətilə ərsəyə gətirdiyi dəyərli elmi töhfədir. Bu kitab, həmçinin dünya şöhrətli dahinin sənətinin ingilis dilində yenidən təqdim olunması baxımından da böyük əhəmiyyət kəsb edir.

# "Osmanlı sənədlərində Azərbaycan toponim və etnonimləri"

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zülfiyyə Vəliyeva Önlenin "Osmanlı sənədlərində Azərbaycan toponim və etnonimləri" adlı kitabı işıq üzü görüb.**




Əsər XVI əsrin sonu - XX əsrin əvvəllərində Osmanlı arxiv materiallarında Azərbaycan adı ilə əlaqədar istifadə edilən ifadələrin tədqiqinə və müxtəlif hadisələr səbəbi ilə adları yazışmalarda keçən Azərbaycan tarixi, mədəni coğrafiyasına aid toponim və etnonimlərin araşdırılmasına həsr olunub.

Azərbaycan toponiminin ilk yarandığı tarixdən etibarən XX əsrin əvvəlinə qədər bir sıra formalarda və dövlət idarələrinin adı ilə birlikdə ifadəsinin 1918-ci ildə onun dövlət adı kimi mənimsənməsinə təsir göstərdiyi əsərin əsas məzmunun təşkil edir.

Əsər giriş və 3 fəsildən ibarətdir. Kitabda ilk öncə müəllif ön sözü verilir. Girişdə Atropanedan Azərbaycana qədər toponimin tarixi inkişafı və Osmanlı sənədlərdə əksi nəzərdən keçirilir. 1-ci fəsildə XVI əsrin sonu - XVIII əsrdə, 2-ci fəsildə isə XIX əsr - XX əsrin əvvəllərində Osmanlı sənədlərində Azərbaycan toponimi ilə əlaqədar ifadələr araşdırılır. 3-cü fəsil XVI əsrin sonu - XX əsrin əvvəlində Osmanlı sənədlərində Azərbaycan toponimi və etnonimlərinə həsr olunub. Fəslin sonunda toponimlərin və etnonimlərin ümumi siyahısı verilir. Sonra araşdırma zamanı əldə edilən nəticələr təqdim edilir.

